# Əməl və sübut

İllərdir “sülh” danışıqlarının nəticəsizliyi, Minsk qrupu həmsədrlərinin bu məsələyə məsuliyyətsiz yanaşması, münaqişənin uzanması xalqımız tərəfindən ağrılı qarşılanırdı. Buna görə də həmsədr təşkilatçılara, həmçinin Minsk qrupunun həmsədrlərinə qarşı inamsızlıq vardı. Müharibə labüd idi. Ermənilər çox asanlıqla əldə etdikləri torpaqları danışıqlar yolu ilə qaytarmaq istəmirlər. Əlbəttə bu doğru fikir idi. Buna görə də özlərini qalib sayan tərəfə məğlubiyyət acısını yaşatmaq, layiq olduqları dərsi vermək lazım idi.

Həmsədrlərin tərəfkeşliyi, beynəlxalq təşkilatların laqeydliyi erməniləri daha da azğınlaşdırmışdı. Prezident İlham Əliyev həmsədr ölkələrə, beynəlxalq təşkilatlara dəfələrlə bildirmişdi ki,məsələni sülh yolu ilə həll etmək üçün Ermənistana sanksiyalar tətbiq olunmalıdır. Lakin bu tələbə müsbət reaksiya verilmirdi. Nəticədə iyul ayında Dağlıq Qarabağdan uzaqda yerləşən Tovuz rayonunun Ermənistanla sərhəddində münaqişə başladı. Ordumuz Ermənistanin bu azğınlığının da qarşısını aldı. Ağır zərbə alan düşmən atəşkəs barədə müraciət etdi.

Sentyabrın 27-də daha böyük qüvvə ilə ordumuza və mülki əhaliyə qarşı növbəti dəfə atəş açıldı. Artıq səbr etmək vaxtı deyildi.

Azərbaycan tərəfindən əks-hücum əməliyyatı başladı. Elə döyüşlərin ilk anında “məğlubedilməz erməni ordusu”nun ön cəbhəsi yarıldı və işğal olunmuş torpaqlarımız ardıcıl olaraq işğaldan azad olunmağa başladı.

Prezident, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə vaxt edəcəyini yaxşı bilirdi. Bilirdi ki, Ermənistan sarsıdıcı hərbi zərbə almasa, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaq. Bunun üçün güclü ordu lazımdır. Ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlər isə döyüş meydanında özünü təsdiq etdi. Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biridir. Son bir neçə ilin statistikasına görə ölkəmiz müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Bütün bu uğurlar Prezident İlham Əliyevin vaxtında həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Mən fəxr edirəm ki, belə bir orduda qulluq etmişəm.



Belə bir ordunun əsgəri olmuşam və həmişə özümü müzəffər ordumuzun müsəlləh əsgəri sanıram. İkinci Qarabağ müharibəsinin iştirakçısıyam. Suqovuşan uğrunda gedən döyüşlərdə yaralandığıma görə əks-hücum əməliyyatında sona qədər iştirak edə bilmədim. Ancaq ordumuzun qazandığı qələbədə, torpaqlarımızın işğaldan azad olunmasında, şəhidlərimizin qisasının alınmasında mənim də kiçik də olsa “ payım” olduğu üçün qəlbən rahatam. Sevinirəm, fəxr edirəm. Qələbə sevinci cismən aldığım yaralarımı unutdurdu. Ancaq döyüşlərdə sona qədər iştirak edə bilmədiyimə təəssüflənirəm...

Biz həmişə 1941-1945- ci illərin Böyük Vətən Müharibəsinin qələbə gününü təmtəraqla qeyd edirdik. Ancaq Böyük Qələbə bugünkü qələbəmizdir. Bu qələbəni bizə Ali Baş Komandanımız, torpaqlarımız uğrunda canını fəda edən şəhidlərimiz, ordumuzun igid qaziləri, bir sözlə, milli ruhda böyümüş əsl vətən oğulları bəxş etmişdir. Onlara minnətdarıq.

Azərbaycan XX əsrdə dünya hərb tarixinə yeni səhifə yazdı. Ordumuzun apardığı döyüş əməliyyatları dünya dövlətləri və qabaqcıl hərbi mərkəzlər tərəfindən diqqətlə izlənildi. Bu döyüşlərdə iki xalqın, iki ordunun mənəvi keyfiyyəti də üzə çıxdı. Azərbaycanlıların humanistliyi, insanlıq dəyərləri, ermənilərin insanlığa yaraşmayan hərəkətləri...Məhz mən bu milli mənəviyyatın, insanlığa verilən dəyərin, eyni məqsədlə döyüşən lakin şəxsən tanımadığım bir əsgərin humanistliyi sayəsində bu gün həyatdayam. Ermənilər isə yaralı silahdaşlarını qoyub qaçır, şəhidlərini, yaşlı vətəndaşlarını qəbul etmək istəmirdilər. Əlbəttə bu özü bir vandalizmdir.

Bu gün mən qələbə sevinci ilə yaşayıram və bu böyük Qələbə münasibətilə bütün xalqımızı təbrik edirəm, şəhidlərimizin ruhu qarşısında baş əyirəm.

Artıq bizim xalqımızın övladları köçkün, qaçqın adlandırılmayacaq, hər kəs öz doğma, doğulduğu torpaqlarda yaşayacaq, həm də qalib bir ölkənin vətəndaşı kimi. Başımızı dik tutub gəzəcəyik, 30 illik əsarətdə olan torpaqlarımız azad olunmuş bir dövlətin vətəndaşı kimi mübariz, sülhsevər, humanist bir xalqın övladı kimi!

Ali Baş Komandanımız Qarabağ Azərbaycandır dedi və bu missiyanı öz siyasəti ilə də təsdiq etdi. Bax, Qarabağ Azərbaycandır! Söz əməl ilə sübuta yetər!

**Ceyhun BALAYEV,**
**motoatıcı bölük komandiri,**
**kapitan.**

# Sevin, Qarabağ, biz qayıdırıq

Bağışla bizi Qarabağ, 30 il səni murdarların tapdağı altında qoyduq.

30 il dağların,dərələrin, yaşıl meşələrin, gur çayların, mədəniyyət beşiyi Şuşan "Qarabağ şikəstəsi"nə, tar-kaman səsinə həsrət qaldı.

30 il sənin uğrunda öldük-dirildik, göz yaşı tökdük, savaşdıq, mübarizə apardıq, minlərlə can qurban verdik. Kimlər can vermədi uğrunda, kimin qanı tökülmədi sinənə - hələ ana bətnində dünyaya göz açmamış süngüyə keçirilən körpədən tutmuş, yeni dil açan, ayağı yeni yer tutan körpələr, ərənlər, igidlər, cavan qız-gəlinlər, ahıllar...

Amma, nə yaxşı ki, haqsız tökülən qanlar, yurdsuz-yuvasız, evsiz- eşiksiz qalanların ah-naləsi yerdə qalmadı, haqq öz yerini tutdu. Çünki, başımızın üstündəki Allah haqq Allahıdır, bizim zülmümüz isə nahaq idi.

Bu gün biz qalibik, bu gün bizim həsrətimiz sona çatdı. Yeni dil açan uşaqdan tutmuş, hər kəsin "Qarabağ bizimdir" kəlməsini Allah eşitdi, nahaq tökülən qanlar yerdə qalmadı, haqq öz yerini tutdu.

Deyirlər, əndazədən çıxan qudurğan olur. Quduranın isə ömrü az olur. Şükür, ataların bu həqiqəti öz yerini tutdu, düşmən cəzasını aldı. Düşməndən fərqli olaraq, igidlərimiz onların cəzasını yetərincə, döyüş meydanlarında verdilər, Qarabağımızı geri aldılar.

Bu gün hər birimizin başı dikdir, torpaq ləkəsi üstümüzdən, qaçqın-köçkün sözü adımızdan təmizləndi.

Daha biz Qarabağı şeirlərdə, mahnılarda yaşatmayacağıq, biz Qarabağda yaşayacağıq.

Bu 30 ildə, biz insanlarda birliyin zəiflədiyini, gənclərdə vətənpərvərlik hissinin o qədər də yüksək olmadığını zənn edirdik. Amma yanılmışıq. Demə, Qarabağ torpağını basmayan, müharibə nədir görməyən, bilməyən gənclərin iç dünyası başqaymış, fərqliymiş. Bunu biz vətən çətinə düşən dönəmdə, düşmən azğınlaşaraq üstümüzə bir daha şığıyanda, daha çox torpaq zəbt etməyə qalxanda sezdik. Düşmənə cavab vermək üçün rəhbərin çağırışına xalq bir anda ayağa qalxdı, birləşdi, dəmir kimi bir yumruq olub,ölkə rəhbərinin arxasında sipər kimi durdu. Hər kəs cəbhəyə öz işi, vəzifəsi ilə kömək oldu. Böyük türk qardaşımız arxamızda durdu. Bir xalq olaraq, qısa zamanda milltəmizin məğrurluğunu,əyilməzliyini, mərdliyini, torpaq eşqini, yurd məhəbbətini, rəhbərimizə sadiqliyini, birliyini bütün dünyaya göstərdik.

Bu gün bütün dünya Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında olan Azərbaycan ordusunun qəhrəmanlığından, Azərbaycan əsgərinin igidliyidən, şücaətindən danışır. Şuşa döyüşlərində düşmən özü etiraf etdi ki, 1500 nəfərlik erməni ordusu Azərbaycanın az sayda igidinin öhdəsindən gələ bilməyib qarşısından qaçdı.

Erməni düşünmədi ki, biz mərd, qorxmaz, igid cəngavərlərin övladlarıyıq və onların illərlə etdikləri vəhşiliklər, Xocalı soyqırımındakı dəhşətləri bizi daha da qəhrəman edib.

Onlar düşünürdü ki, biz hər şeyi unutmuşuq. Amma, bu otuz ildə biz səbr etmədik, vətən dərdini unutmadıq, hazırlaşdıq, mətinləşdik.

Qəhrəman elimizin qəhrəman oğlu, İlham Əliyev həm Prezident kimi, həm Ali Baş Komandan kimi var qüvvəsi ilə bütün sahələrdə-siyasi, iqtisadi, hərbi sahələrdə çalışdı, iş apardı, hər kəsi öz ətrafında birləşdirməyi bacardı. 17 il əvvəl, andiçmə mərasimində inamla vurğuladığı, "Hansı yolla olursa olsun, biz Qarabağ torpaqlarını işğaldan azad edəcəyik", sözünü tutdu. Dahi rəhbərin, ulu öndərin, atasının vəsiyyətini yerinə yetirdi. Bu da düşmənin gözləmədiyi, hətta yuxusuna belə gətirmədiyi nəticə. - Biz qələbə çaldıq, haqqımıza qovuşduq.

Bu qələbə tarixdə şanlı bir qələbə kimi qalacaq. Bu qələbə adi qələbə deyil, bu qalibiyyət adi qalibiyyət deyil. Düşmənin dörd ilə zəbt etdiyi torpaları bizim qəhrəman övladlarımız 44 gündə canı, qanı bahasına geri aldılar.

200 illik tarixdə düşmənin yerləşdiyi qədim torpaqlarımızın bir hissəsi ilk dəfədir geri alındı. Var ol, Ali Baş Komandan, var ol Azərbaycan Ordusu, var olun Azərbaycanın igid, mərd oğulları. Bu yeni tarixi siz igidliyinizlə, canınızla, qanınızla, qızıl hərflərlə tarixə yazdınız. Baş əyirik sizlərin qarşınızda, baş əyirik şəhidlərin ruhu qarşısında. Hər birinizə minnətdarlıq borcumuz var.

Sil gözünün yaşını, şəhid anası, balanın qanı yerdə qalmadı. Siz, şəhid ata-anaları övladınızı itirmədiniz, siz vətənə yaddaşlarda ömürlük qalan qəhrəman, ölməz, igid qazandırdınız.

Yastığınız yüngül olsun, qazi balalarımız.

Yeridiyiniz torpağın üzərində addımlarınızı mətin, qürurlu atın, vətəni qoruyan vətən oğulları, o torpaqları almaq üçün hər addımını qucaqlayaraq, qarış-qarış sürünmüsünüz onun üzərində vətən oğulları.

Tökdüyünüz qanı, çəkdiyiniz əziyyəti hər biriniz halal edin bizlərə.

Azərbaycan, sən elə bir ölkəsən ki, ucalardan uca,Azərbaycan, sən elə bir yurdsan ki, qocalardan qoca.

Bu gün bu uca, bu qoca torpağın sakinlərinin üzü gülür, bayramıdır, QƏLƏBƏ bayramı.

QƏLƏBƏN mübarək, Azərbaycan!

Bayramınız mübarək, Azərbaycan xalqı.

**Sədaqət BAYRAMOVA,**
**Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Bölməsinin sədri.**

# İndi mənim elim var!

Belə bir xoşbəxtliyi yuxumda da görməmişdim…

28 il əvvəl... O günü xatırlamaq nə qədər acı olsa da, özümüzdən asılı olmayaraq xatırlanır. İllərlə yaşadığın, əzizlərinlə, doğmalarınla ömür sürdüyün bir torpaqdan çıxarılasan... Dəhşət deyilmi? Düz 28 ildir qonaq kimi, utanmış halda özgə mənzillərində yaşamağın nə demək olduğunu ancaq yaşayanlar bilər. Ağlıma da gətirməzdim ki, nə vaxtsa Qarabağ torpaqları işgaldan azad olar, bu düşüncəmin reallaşacağını xəyalıma belə gətirməmişdim.

Yaman günün ömrü az olar məsəlini tez-tez hallandırsam da, içimdəki sarsıntı bu deyimə də inanmağa qoymurdu.

Ta sentyabrın 27-si gününədək.

O gün artıq inandım ki, ayaga qalxıb vətən, silahını ələ alıb şanlı ordumuz.

Yəqin tezliklə görəcəyəm o torpaqları.

Qələbənin lap birinci günü, polis polkovnik-leytenantı, 59 yaşlı bibim oglu qələbənin ilk sevincini hiss edib, sevincdən dünyasını dəyişdi...

Son günlər hər qələbə sevincindən öləcəyimdən çox qorxurdum, Allaha yalvarırdım ki mənə ömür versin, gedib Qarabağı görüm, ata-baba yurdumu ziyarət edim. Şükür ki, hələ sagam.

Sevinc hissindən ölmək çox asandır.

İnşallah, gedəcəm.

Əhd etmişəm, ilk gedişim Bakıdan Ağdamadək piyada olacaq.

Artıq xoşbəxtəm.

Ən başlıcası odur ki, qaçqın adı üstümdən götürüləcək.

İndi mənim elim var.

Qarabağlıyam.

Qarabağ Azərbaycandır!

**Zəminə CAVADLI,**
**Ağdam rayonu.**

# Ürəklər sizinlədir

Qarabağ Azərbaycandır! Buna şübhə də ola bilməzdi. Sadəcə sülhsevər xalqımız səbrlə danışıqları gözləyirdi. Azərbaycan xalqı müharibə sevmir, həmişə sülh tərəfdarıdır. Ordumuz isə işğalçılar tərəfindən dinc xalqımızın qanı tökülən öz torpaqlarımızı geri qaytarmaq üçün əks-hücuma keçmişdi.

Səbrin də kasası dolur. Daha səbr etmək, sülh yolu ilə “danışıqlar”ı daha 30 il gözləmək vaxtı deyildi. Polad Həşimov kimi general və igid əsgərlərimizin simasında neçə-neçə şəhidlərimizin qanı yerdə qala bilməzdi...

Azərbaycan Ordusu qələbə çalmalı idi. Biz buna əmin idik. Qərib ölkədə yaşasaq da, hər an doğma yurdumuzdan şad xəbər eşitmək arzusu ilə vurur nəbzimiz. Hər dəfə kəndlərimiz, rayonlarımız mənfur düşmən əsarətindən, işğaldan azad olunduqca sevinc göz yaşları ilə döyünür ürəklərimiz.

Bəli, Qarabağ bizimdir! Şəhidlərimizin al qanı ilə yoğrularaq geri alınıb torpaqlarımız. Heç kimsənin haqqı yox idi bu torpaqları mənimsəməyə...Çünki xalqımın-ata-anaların, bacı-qardaşların, körpə balaların, əllərinin gül xınası solmayan gəlinlərin göz yaşları axıb bu torpaqlarımıza. İndi bütün dünya bilsin ki, Azərbaycan torpağı alınmazdır, müqəddəsdir. Çünki şəhidlərimizin əbədi məskənidir bu torpaqlar.

Biz, qərib ölkədə yaşayan, ürəkləri həmişə Vətənlə döyünən azərbaycanlılar şəhidlərimizin ruhu qarşısında baş əyirik. Sizin qanınızla suvardığınız o müqəddəs torpaqlarda artıq güllər bitəcək!!!

Şəhid valideynlərinin əllərindən, şəhid balalarının gözlərindən öpürük. Haqqınızı halal edin! Sizin sayənizdə bu gün biz qələbə sevincini yaşadıq. Sayənizdə artıq xaricdə yaşayan azərbaycanlılar olaraq başımızı dik tutub qürurla gəzə biləcəyik. Daima var ol, Azərbaycan xalqı! Var ol, Ali Baş Komandan!

**Vüsalə OSMANOVA,**
**Qazaxıstan Respublikası,**
**Aktau şəhəri.**